# “Kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq”



***Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış bəyanatın bir hissəsidir. Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrinin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

***Ötən il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanat ölkəmizin öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı Vətən müharibəsinin Azərbaycanın tam qələbəsi ilə başa çatmasını hüquqi cəhətdən təsdiqləməklə bərabər, həm də müharibədən sonrakı dövr üçün regionun iqtisadi inkişafına dair mühüm məqamları əks etdirir. Bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi vurğulanır. Başqa sözlə desək, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulur. Fevralın 14-də Prezident İlham Əliyevin Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da sözügedən bəyanatın 9-cu maddəsinin icrasına başlanılmasının bariz ifadəsidir.***

Yeri gəlmişkən, Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri arasında 2021-ci il yanvarın 11-də reallaşan üçtərəfli görüş zamanı da nəqliyyat-kommunikasiya sistemlərinin bərpası əsas müzakirə mövzusu olub. Görüşün gedişində imzalanan yeni bəyanata əsasən, 10 noyabr bəyanatının 9-cu bəndinin müddəalarını icra etmək üçün Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə üçtərəfli işçi qrupu yaradılıb. Həmin qrupun iclasında isə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin 2020-ci il noyabrın 10-da imzaladıqları bəyanatın həyata keçirilməsi, dəmir yolu və avtomobil yolunun salınmasının prioritet məsələ kimi icra olunması, eləcə də üç ölkə rəhbəri arasında razılaşdırılan digər istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı əsas fəaliyyət istiqamətlərinin siyahısı hazırlanıb.

Xatırladaq ki, əməkdaşlıq və nəqliyyat baxımından Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan sənədlər arasında ən mühüm məsələlərdən biri sayılır və bu, Ermənistan da daxil olmaqla bütün regional ölkələrin maraqlarına xidmət edir. Azərbaycan bölgədə davamlı sülhün bərqərar olunması üçün əsas vasitəni əməkdaşlıqda görür və buna görə də Zəngəzur dəhlizin yaradılmasını və nəqliyyat əlaqələrinin bərpasını qətiyyətlə dəstəkləyir.

Prezident İlham Əliyev 2021-ci il fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı zamanı Zəngəzur dəhlizi ilə bağlı danışarkən, deyib: “Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır”.



Dövlətimizin başçısının bu fikirləri söyləməsi əsas verir ki, Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir “damarı” açılacaq və bu, nəticədə bölgə ölkələri arasında xüsusilə iqtisadi-ticari əlaqələrə müsbət təsir göstərəcək. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu reallaşdıracaq. Şübhəsiz ki, bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Zəngəzur dəhlizi, həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi və Orta dəhliz kimi beynəlxalq nəqliyyat dəhlizləri daxilində bölgənin əhəmiyyətini daha da artıracaq. Dəhlizin iqtisadi faydaları ilə yanaşı, onun reallaşması nəticəsində iqtisadi əlaqələrin genişlənməsi də bölgədə davamlı sülhün və təhlükəsizliyin qorunub saxlanmasına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Dayanıqlı iqtisadi inkişaf və sülh isə, təbii ki, gələcəkdə Ermənistan tərəfindən zərərli millətçi fikirlərin yayılmasının və yeni münaqişələrin yaranmasının qarşısını alacaq.

Ermənistan isə Zəngəzur dəhlizinin vurğulanan üstünlüklərindən yararlanarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edər.

Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

Prezident İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında Vətən müharibəsindən zəfərlə çıxan Azərbaycanın regionda və beynəlxalq aləmdə mövqeyini dərindən təhlil edərkən, parlaq qələbəmiz nəticəsində bölgədə yeni reallıq yarandığını və Ermənistanın bu reallıqla hesablaşmasının zəruriliyini xüsusi vurğulayıb. Dövlətimizin başçısı bəyan edib ki, keçən il noyabrın 10-da imzalanan üçtərəfli bəyanat hazırda uğurla icra edilir və edilməlidir: “Əks-təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Yəni, Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar”.

Bir sözlə, Ermənistan Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməsə, daha da zəifləyəcək. Prezident İlham Əliyevin diqqətə çatdırdığı kimi, bu məsələdə obyektiv olaraq başqa vəziyyət, sadəcə, mümkün deyil. Azərbaycan və Türkiyə ilə əməkdaşlıq olmasa, Ermənistanın bərpa üçün sadəcə, resursu yoxdur. Düşmən hər tərəfdən sıxılmış vəziyyətdə necə yaşayırdısa, bundan sonra elə də qalacaq.

Prezident İlham Əliyev, həmçinin xəbərdarlıq edib ki, Ermənistan hər hansı mənfi addım atmaq barədə düşünməməlidir. Bu ölkənin siyasi, hərbi və iqtisadi konfiqurasiyası asılı vəziyyətdədir. Regionda Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Türkmənistan, Azərbaycan-Türkiyə-İran, eləcə də Türkiyə-İran-Rusiya əməkdaşlıq formatları var. Ermənistan regionda yeganə ölkədir ki, onun belə bir əməkdaşlıq formatı yoxdur.

Prezident regionda sülhün bərqərar olunmasının şərtlərindən danışarkən deyib ki, Azərbaycanın məqsədi artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır. Bu, reallaşsa, Ermənistan da sülhün xeyrini görəcək. “Daha bir şərtimiz, sülh üçün şərt ondan ibarətdir ki, Ermənistan siyasi dairələri anlamalıdırlar, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır. Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır. 10 noyabr bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək”.

Yeri gəlmişkən, burada xarici ekspertlərin bir fikrini də xatırlatmaq istərdik. Bildirilir ki, Azərbaycan ikinci Qarabağ müharibəsindəki qələbəsi ilə Qərbə və Şərqə çıxışın qovşağında yerləşən və əzəli torpağı olan Qarabağı azad etməklə qonşu ölkələr sırasında özünün geosiyasi–geoiqtisadi kursunu bir qədər də dəqiqləşdirdi. Bununla da respublikamız həm Xəzər-Qara dəniz hövzəsində və Cənubi Qafqazda, həm də Orta Asiya və Yaxın Şərqdə məqsədyönlü geoiqtisadi fəaliyyət üçün əlverişli şərait yaratdı.

Beləliklə, Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xətti gələcəkdə Azərbaycandan keçməklə Cənubi Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da, öz növbəsində, Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək, bu bölgədə tikinti-quruculuq layihələrinin reallaşdırılmasını sürətləndirəcək.

Ekspertlər bildirirlər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün təmin olunması Azərbaycanın dünyanın, eləcə də regionun ən cəlbedici ölkəsinə çevrilməsini gücləndirir. Dövlətimizin başçısı tərəfindən Füzuli rayonunda uzunluğu 100 kilometr olan Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması isə daha bir regional nəqliyyat layihəsinin işə düşəcəyindən xəbər verir.



Azərbaycanın uzun illər təhlükəsiz tranzit ölkə kimi qazandığı nüfuz və maliyyə resursları da Horadiz-Zəngilan-Ağbənd dəmir yolu xəttinin uğurla reallaşdırılacağına imkan verəcək. Digər tərəfdən, bu infrastruktur bütün türk dünyasını birləşdirməklə yaxın gələcəkdə regionun türkdilli dövlətləri arasında dərin iqtisadi-siyasi birliyin qurulmasına və möhkəmlənməsinə də əsaslı təsir göstərəcək.

Ekspertlər, həmçinin qeyd edirlər ki, Azərbaycan regionda güclü potensiala sahib olan və tranzit əlaqələri təmin edən ölkədir. Bütün iqtisadi maraqlar Azərbaycanın ərazisində kəsişdiyinə görə, burada bütövlükdə regionun təhlükəsizliyi məsələsi önəm daşıyır. Ermənistanın düşmən münasibəti bütün region üçün təhdid deməkdir və bu yolu seçərsə, növbəti dəfə öz dezinteqrasiyasının mənfi nəticələrini görəcək.

Ermənistanda artıq anlamalıdırlar ki, erməni faşizminin mövcud şəraitdə– regional maraqlar və təhlükəsizlik çərçivəsində bir daha baş qaldırması qeyri-mümkündür, belə addımların nəticəsi onlar üçün daha acınacaqlı ola bilər.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***